Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Nə qəmlidir, nə ələmli həyatın, ey şair!

**Məhəmməd Hadinin yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı 2020**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Nə qəmlidir, nə ələmli həyatın, ey şair:** Məhəmməd Hadinin yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. A. Əliyeva; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. – 31 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

*Türkün tökülən qanları bihudə gedərmi?*
*Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?*
*Qan ilə qazandıq zəfəri, verməyiz əldən,*
*Xof eyləmədik atəşi-dərhaşi-düvəldən.*

Hər bir xalqın ədəbiyyat tarixində elə şəxsiyyətlər olur ki, onların yaratdığı sənət möcüzələri əbədi olaraq qalır, neçə-neçə nəsillərin bədii zövqünü oxşayır. Azərbaycan ədəbiyyatı tarixi belə şəxsiyyətlərin adı və ədəbi irsi ilə sıx zəngindir. Onların hər birinin yaradıcılığı bir dünya olub, öz epoxasının həyatına güzgü tutmaqla həqiqətləri bizə çatdırır. Bunların içərisində görkəmli Azərbaycan şairi Məhəmməd Hadinin xüsusi yeri vardır. Öz dəst-xətti ilə Azərbaycan ədəbiyyatında yeni mərhələnin, eləcə də romantizmin əsasını qoyan, sələf və xələflərinə bənzəməyən Məhəmməd Hadi qəlbinin dediklərini yazan, ömrü boyu həqiqətin əsiri olan, ancaq gözəlliyə tapınan qeyri-adi bir mütəfəkkir idi. Faciəli ömrün qəmli dastanını yazan şair M.Hadinin söykəndiyi həqiqətin bir mənası olub: xalqını azad, xoşbəxt, millətini birlikdə, vətənini isə sivil dövlətlərin sırasında görmək. Bu həqiqəti tapmaq və ona qovuşmaq yolunda Hadi dövrünün sərt qadağaları, sədləri ilə üzbəüz dayanıb. Onun bədii düşüncəsi, yazıları sənət tariximizin əvəzsiz nümunələrindən biri idi. Həyat və yaradıcılığı, əsərləri və ədəbi mövqeyi ədəbiyyatşünaslıqda, bədii estetik fikir tarixində, dərslik, metodik vəsait və məqalələrdə geniş tədqiq olunan, öyrənilən böyük şəxsiyyət Məhəmməd Hadi XX əsr Azərbaycan və dünya romantizmin ən görkəmli nümayəndəsi və gözəlliyi, həqiqəti dərk etdirən, yaşamaqla yanaşı yaşamağın sirlərini öyrədən dahilərlə bir sırada adı çəkilən, millətin tərəqqi və nicat yolunu sənəti və idrakı ilə dərk edən, çıxış yolunu göstərməyə çalışan sənətkarlardandır.

Mövzu məhdudluğu şair üçün yad idi. Hadi poeziyasında ictimai mövzular xüsusi yer tutur. Hadi romantik şair idi. O, təzadlı, mürəkkəb, ziddiyyətli və dramatik bir ömür yolu keçmişdir.

Hadinin şeirləri poetik quruluşca Füzulinin poeziya məktəbinə mənsubdur.

Onun yaradıcılığında milli azadlıq, vətənpərvərlik və humanizm ideyaları mühüm yer tutur. Hər bir millətin və ölkənin, ümumiyyətlə, bəşəriyyətin tərəqqisini ictimai azadlıqda görən şair yazırdı:

Hurriyyət ilə millət edər kəsbi-məali,
Avropalı hürriyyət ilə tapdı kəmali.
Əlbəttə, əsarətdə olur məhz əhali,
Hürriyyət sərbəstlik imrani-vətəndir.

Hadinin əsərləri qədər həyatında da insanların mənəvi tərbiyəsinə təsir göstərən amillərin olması da yüksək mənəviyyat xəzinəsidir, insanları haqqa, ədalətə, doğruluğa və ən əsası, ruhani yüksəkliyə aparan yolun istiqaməti kimi dəyərli və qiymətlidir.

### ***Həyatı***

Əsl adı Ağa Məhəmməd olan, gəncliyində özünə Hadi (ərəb dilində doğru yol göstərən) təxəllüsünü seçən Məhəmməd Hadi 1879-cu ildə Şamaxı şəhərinin Sarıtorpaq məhəlləsində, tacir ailəsində doğulmuşdur. İbtidai təhsilini məhəllə məktəbində şamaxılı Molla Səmədin yanında almış, sonralar şair Abbas Səhhətin atası Əliabbas əfəndinin təsis etdiyi məktəbdə oxumuş, kiçik yaşlarından ərəb və fars dillərini mükəmməl mənimsəmişdir. Hələ uşaqkən atasını itirən Hadinin anası onu və bacıları Sahibə və Əsmanı ata qohumlarının himayəsinə buraxaraq Sulut kəndində varlı biri ilə evlənmiş, bundan sonra uşaqlara böyük nənələri Əbdülsəlimin anası Teyyibə xanım

baxmışdır. Şairin yaxın qohumlarından olan Mustafa Lütfi bəy onun tərbiyəsində böyük əmək sərf etmişdir. Nənəsinin vəfatından sonra Məhəmməd Hadi qohumu Mustafa Lütfinin himayəsində yaşamalı olmuş və ərəb dilini ondan öyrənmişdir. Məhəmməd Hadi gənclik illərində ilahiyyat elmləri ilə bərabər dünyəvi elmləri, xüsusilə dil, ədəbiyyat, fəlsəfə, məntiq, tarixi də dərindən öyrənmişdi. Şair hələ gənc yaşlarından xaricdə təhsil almaq istəsə də, maddi imkanı olmadığından bu arzusu ürəyində qalmışdı. Ədibin yaxın dostu, məsləkdaşı Seyid Hüseyn şair haqqında yazırdı: "O, oxuduğu elmlərin kəndisinə heç bir nəticə verməyəcəyini, olsa-olsa mömin bir molla əfəndidən fəzlə bir şey olmayacağına hissi-qəbləl-vüqu ilə anladığından İstambul və Əl-Qahirə kimi islam mədəniyyəti mərkəzlərinə gedib orada təhsil almaq fikrinə düşmüşdü. Mustafa Lütfi... Hadini xarici məmləkətlərə göndərəcək iqtidarı olmadığından Hadi bir neçə zəngin əqrəbasını müraciətdə bulunmuş, təhsil arzusunda olduğunu söyləyib müavinət istəmişsə də, sözünü dinləyən və yardımda bulunan olmamışdı".

Hadi istədiyi məktəblərdə, istədiyi elmləri oxumağa nail ola bilmədiyindən əmisi oğlunun köməyi ilə ticarət işinə əl atmış, lakin bu işə marağı olmadığından işi tezliklə tərk etmişdir. 1902-ci ildə yanvar ayının son günündə Şamaxıda təbii fəlakət baş verir. Şamaxı zəlzələsindən sonra hamı kimi Məhəmməd Hadi də köçür. Bu haqda Ö.F.Nemanzadə öz xatirələrində yazır: "1902-ci il yanvarın 31-də cümə axşamı gündüz saat 12-də Şamaxıda indiyə qədər görünməmiş yer tərpənişi oldu. Bu gün Şamaxı üçün ən böyük fəlakət, eşidilməmiş bir dəhşət və qiyamət günü idi. Baş vermiş dağıdıcı zəlzələdən sonra bir çox şamaxılılar kimi Məhəmməd Hadi də doğma şəhərini tərk etməyə məcbur olmuş, evlərinin ənqazını (tör-töküntü) 200 manata sataraq Kürdəmirə getmiş, ibtidaən bir əttar dükanı açmış isə də, ondan da bir şey çıxmadığını görüncə, ikincikərə olaraq zərər ilə dükanı qapamışdır".

Kasıb olduğu üçün sevgilisi tərəfindən tərk edilən Məhəmməd Hadi ölənə qədər ailə qurmamışdır.

Məhəmməd Hadi XX əsr Azərbaycan şairləri içərisində mətbuatla sıx əlaqəsi olan sənətkarlardan biridir. Öz əsərlərinin əksəriyyətində vətən, millət mövzusuna toxunan Məhəmməd Hadi Azərbaycan poeziyasının intibah, azadlıq və hürriyyət mücahidlərindən biri olmuşdur. Ona görə də M.Ə.Rəsulzadə Azərbaycan Cümhuriyyəti əsərində "bir tərəfdən rus ədəbiyyatı, digər tərəfdən də Osmanlı ədəbiyyatı təsirində bulunan" istiqlal mövzusunda mübariz əsərlər yazan şairlər arasında Məhəmməd Hadini ayrıca dəyərləndirirdi.

Romantik maarifçilikdən inqilabi romantizmə yüksələn Məhəmməd Hadinin yaradıcılığının ən mübariz dövrü Azərbaycan Xalq Cümhuriyyəti dönəminə düşür. Məhəmməd Hadi yaradıcılığının ən çağdaş milli və bəşəri keyfiyyətləri məhz bu dövrdə özünü daha aydın göstərdi. O dönəmdə müharibə, azadlıq, istiqlal mövzusunda ən çox əsərlər yazan Məhəmməd Hadi olmuşdur.

Gudayi-vətən olmaq, sürgünlərdə ömür sürmək, elə bil bəzi Azərbaycan şairlərinin alın yazısı olub. Ötən yüzilliyin əvvəllərində uzaq ellərdə sürgün həyatı keçirən, qürbət poeziyamıza öz töhfəsini verən və nəhayət, ədəbiyyatımızda ədəbi cərəyanı yaradan sənətkarlardan biri də əsl adı Ağa Məhəmməd gəncliyində özünə Hadi təxəllüsünü seçmişdir. Təkcə yaradıcılığında deyil, həyatında da romantik olan Hadi Türkiyədəki inqilabi hadisələrdən ruhlanaraq 1908-ci ildə İstanbula gedir, lakin burada onu həbs edir və "rus casusu" kimi Salonikə sürgün edirlər.

## *Yaradıcılığı*

1902-ci il yanvarın 31-i Şamaxı üçün ən böyük fəlakət, eşidilməmiş bir dəhşət və qiyamət günü idi. Baş vermiş dağıdıcı zəlzələdən sonra bir çox şamaxılılar kimi Məhəmməd Hadi də doğma şəhərini tərk etməyə məcbur olmuş, Kürdəmirə getmişdir. Kürdəmirə köçən, Məhəmməd Hadi özünü xarakterinə daha yaxın sahədə sınamaq qərarına gəlmiş və bəzi maarifpərvərlərin müavinəti ilə Kürdəmirdə yaşayan şamaxılı Ağa əfəndi ilə birlikdə məktəb açıb tədrisə başlamışdır. Çox keçmir ki, Məhəmməd Hadi Kürdəmir ziyalılarının nəzərini cəlb etmiş, onu Zaqafqaziya müəllimlər qurultayına Kürdəmir müəllimləri tərəfindən nümayəndə seçilmiş və 1904-cü ildə Tiflisdə keçirilən Zaqafqaziya müəllimlər qurultayında iştirak etmişdir. 1902-1906-cı illər Kürdəmirdə yaşadığı illərdə maddi imkanları nisbətən düzələn Məhəmməd Hadi yenə də əvvəlki qayda ilə mütaliəsini davam etdirir, Kəlküttədən "Həblül-mətin", İstanbuldan "Sabah", Bakıdan "Həyat", Bağçasaraydan "Tərcüman" qəzetlərini gətirdib oxuyurdu.

Mühərrir kimi Hadinin ilk qələm sınaqlarından biri "Həyat" qəzetində çıxan "Bəyani həqiqət" yazısıdır. Əlinə təzəcə qələm almış bir gəncin həqiqət axtarışında yaradıcılığa "Həqiqət" anlayışından başlaması maraq doğurur. Məqalə o dövrdə mətbuatda gedən bir yazı münasibətilə qələmə alınmışdır. Orada millətin cəhalətindən söz açılırdı. Gələcək romantik Hadinin yaradıcılığı boyu özünü göstərən əlamətlərin bünövrəsi qoyulmuş olur.

Ədibin mətbuata gəlişi 1905-ci ilin ortalarına təsadüf edir. Məhəmməd Hadi tamamilə müəllimlikdən əl çəkir, 1905-ci ildə Həştərxana gedir, mətbuatda çalışmağa başlayır. Hadi "Həyat", "Füyuzat" və "Bürhani-Tərəqqi" qəzetlərində elmə, maarifə çağıran şeirlər və intibah məsələlərinə dair məqalələr yazırdı. Məhəmməd Hadi 1906-cı ildə Əli bəy Hüseynzadənin çağırışı ilə Bakıya gəlib "Füyuzat" məcmuəsində çalışır, buradakı

osmanlı müəlliflərindən fərqli olaraq yerli həyata dair yazıların geniş nəşrinə çalışır. “Füyuzat” bağlandıqdan sonra o, “Təzə həyat” və “İttifaq” qəzetlərində işləyir.

1907-1908-ci illərdə Məhəmməd Hadi artıq Azərbaycan şairləri arasında görkəmli simalarından sayılırdı. “Nəğmeyi-əhrarana”, “Duşizeyi-hürriyətə”, “Gül, sevdiyim, gül”, “Ədvari-təcəddüd”, “Əsari-inqilab” və s. şeirlərində Məhəmməd Hadi bilavasitə və ya dolayısı ilə azadlıqdan danışırdı.

1908-ci ildə çıxmış “Firdovsi-ilhamat” kitabına “Varmı bundan yuxarı uçmağa istedadım” misrası ilə başlanan “Cəhalətimdən şikayət”, “Aşiqi-sadiqləriz, pünhan deyil bürhanımız” misrası ilə başlanan “Bu da bir həqiqət”, “Afərin olsun sənə, filusufi-zifunun” misrası ilə başlanan “Şeyxlərə-işanlara”, “Sofi, gəl öyrən həyatın tərzini heyvandan” misrası ilə başlayan “Söfiyə-zahidə” və s. şeirləri, məqalələri, tərcümələri daxil edilmişdir.

Maarif, mədəniyyət, milli oyanış, dil, din və s. bu kimi problemlərə yer ayıran qəzetdə Ə.Hüseynzadə, Ə.Ağayev, H.Zərdabi, N.Nərimanov, Ə.Haqverdiyev və b. nisbətən təcrübəli qələm sahiblərinin imzası ilə yanaşı yeni bir imza da görünməyə və dərhal da oxucuların diqqətini cəlb etməyə başladı. Bu imzanın sahibi Əbdülsəlimzadə Məhəmməd Hadi Şirvani idi. 1905-ci ilin yayında Bakıya, “Həyat” qəzeti redaksiyasına göndərən Məhəmməd Hadi ilk yazılarında qəzetdə əsərlərini oxuduğu ziyalıların, daha çox Əli bəy Hüseynzadənin müzakirə obyektinə çevirdikləri məsələlərə münasibət bildirir və məqalələri içərisində bəzən mövzuya uyğun mənzum parçalar da verməsi Məhəmməd Hadinin eyni zamanda şeir yaradıcılığına böyük marağı olduğunu göstərirdi. “Həyat” qəzetinin 23 iyul 1905-ci il tarixli 35-ci nömrəsində “Əbdülsəlimzadə Şamaxiyi” imzası ilə çap etdirdiyi “Bəyani-həqiqət” adlı məqaləsi ilə başlayan Məhəmməd Hadi qısa bir zamanda “Həyat” ın ən fəal yazarlarından birinə çevrilir.

Başlıca mövzuları "mətbuatın, elm və mədəniyyətin faydası, sənaye, azadlıq hərəkatı, yeni nəslin tərbiyəsi, qadın azadlığı, dünyəvi elmlər, Vətənin tərəqqisi, cəhalətdən xilas olmaq, mədəniyyət səviyyəsini yüksəltmək, insani hisslərin müqəddəsiliyi və s." idi.

## Yubiley tədbirlərinin keçirilməsi

Görkəmli şairimiz Məhəmməd Hadi yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, icmal, ədəbi-bədii gecə keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını gənc nəslə və oxuculara tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil oluna bilər. Sərgidə şairin müxtəlif illərdə çəkilmiş foto stendi, kitabları ilə yanaşı ədəbiyyatşünas və digər müəlliflərin onun haqqında yazdığı kitablar, araşdırmalar, ona ithaf edilən şeirlər, kəlamlar və dövri mətbuatda yer alan məqalələr öz yerini almaqdadır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Nə qəmlidir, nə ələmli həyatın, ey şair!" "Ölməz şair- Məhəmməd Hadi", "İstiqlal şairinin özü və sözü", "Azadlıq aşiqinin ömür yolu", "Acı taleyin böyük səsi", "Qəlbi Vətən olan şair", "Haqqı hayqıran şair", "Sözə sevdalı-Cavad", "Məhəmməd Hadi dünyası", "Millətin yükünü-qəlbində daşıyan şair" , "Sinəsi tufan şair", "Həm qalib, həm məğlub Məhəmməd Hadi" və s.

Məhəmməd Hadi poeziyasını oxuculara çatdırmaq məqsədi ilə kitabxanada *"Türkün tökülən qanları bihudə gedərmi?"* adlı **seçilmiş əsərlərinin təhlili** ilə bağlı tədbir keçirilə bilər. Bunun üçün kitabxanaçı oxucuları kitabxanaya cəlb edərək onları şairin yaradıcılığı və kitabları ilə tanış edir. Oxucular onun ayrı adda kitablarını, xüsusilə də "Seçilmiş əsərləri" adlı kitabını oxuyub, şeirlərini dərindən mənimsəyirlər. Təyin olunmuş vaxtda oxucular kitabxanaya gələrək tədbirdə iştirak edirlər. Tədbiri açıq elan edən kitabxanaçı hər kəsi salamladıqdan sonra Məhəmməd Hadi keşməkeşli ömür yolundan və coşqun

yaradıcılığından danışır. Kİtabxanaçı M. Hadinin digər kitabları və eləcə də tədqiqatçıların Hadiyə həsr etdikləri kitablarından da söhbət açır.

2011-ci ildə Türkiyədə "Ötükən" nəşriyyatında Mehdi İsmayılovun (Gəncəli) "Azerbaycanlı şair Mehemmed Hadi – hayatı, sanatı, eserleri" adlı kitabı çap olunub. Kitabın əsas xüsusiyyəti odur ki, Sovet dönəmində Hadinin yaradıcılığının üzərinə qapadılmış pərdə geniş şəkildə açılıb, Hadinin istər həyatı, istərsə də yaradıcılığı haqqında çoxluğa bəlli olmayan faktlar təqdim edilib. Xüsusən də, Hadinin Türkiyə mühitində yazdığı əsərlər əhəmiyyət kəsb edir.

Baxmayaraq ki, Sovet dönəmində Hadinin şeirlərindən ibarət kitablar nəşr olunub, haqqında yazılıb, amma dövrün tələbi ucbatından tədqiqatçılar bəzi faktların üzərindən keçməyə məcbur olublar.

M.Hadi sağlığında dörd kitab nəşr edib. Bunlar "Firdövsi-ilhamat" (1908), "Şükufeyi hikmət" (1914), "Eşqi-möhtəşəm, yaxud Əflatun sevgisi" (1914) və "İnsanların tarixi faciələri və yaxud əlvahi-intibah" (1918-1919) adlı kitablardır. Lakin onun əsərlərinin böyük bir hissəsi dönəmin mətbuatının səhifələrində yer alıb. Çünki Hadi o dönəmdə nərş edilən bir çox– "Həyat", "Tazə həyat", "İttifaq", "Tərəqqi", "Səda", "Sədayi Haqq", "Bəsirət", "Doğru söz", "Təkamül", "İrşad", "Sovqat", "Yeni irşad", "Yoldaş", "Azərbaycan" kimi qəzetlərdə, "Füyuzat", "Dəbistan", "İqbal", "İşıq" və s. kimi dərgilərdə əsərlərini çap etdirib

Eləcə də, M.Gəncəlinin araşdırmasına görə, Hadinin Türkiyədə "Sabah", "Tanin", "Senin" qəzetlərində, "Mehtab", "Şehbal", "Rübab" dərgilərində imzası vardır.

Qeyd edək ki, Hadinin məqalələri ayrıca kitab kimi çap olunmayıb, şeirləri də tam şəkildə yayımlanmayıb. Onun Türkiyədə yayımlanan bütün məqalələri və şeirləri isə ilk dəfə Mehdi Gəncəli tərəfindən toplanılıb.

M.Gəncəlinin kitabı Hadinin "Həyatı və əsərləri", "Sənəti", "Görüşləri" adlı üç hissədən ibarətdir. Bölümlərə uyğun olaraq Hadinin şərq və qərb mədəniyyətindən təsirləndiyi qaynaqlar, şeir və məqalələrinin mövzuları, dünyagörüşü haqqında ətraflı bilgilər verilir.

M.Gəncəlinin yazdığına görə, Hadinin imzasına ilk dəfə "Həyat" qəzetinin 24 iyul 1905-ci il tarixli 35-ci sayında rast gəlinir. Bu nömrədə onun "Bəyani-həqiqət" adlı məqaləsi dərc olunub: "18 iyul 1906-cı il tarixinə qədər Hadi imzasına yalnız "Həyat" qəzetində rast gəlinir. Bu müddətdə o, 19 məqalə, üçü şeir olmaqla ümumilikdə 22 yazı dərc etdirib".

Dönəmin ən məşhur jurnalı olan "Füyuzat"da isə Hadinin 34 şeiri, 7 məqaləsi yayımlanıb.

Qeyd edək ki, dönəmin bütün qəzet və jurnallarını tək-tək araşdıran müəllif hansı qəzet və jurnalda Hadinin neçə şeir, məqalə və hekayəsinin çap olunduğunun statistikasını ətraflı şəkildə qeyd edib. Bu isə Sovet dönəmində üzərindən keçilən əsərlərin ictimaiyyətə bəlli olması baxımından yenilikdir.

Hadinin Türkiyə mətbuatında yayımlanan ilk yazısına gəldikdə isə müəllif yazır: "Hadinin Türkiyə mətbuatında çıxan ilk yazısı "Sabah" qəzetinin 30 təşrini sani 1910 tarixli 7613-cü sayında yer alan "Tolstoy və Rekz-i Abidə" adlı məqaləsidir. Bu yazı "Kafkasyalı Mehemmed Hadi-i Şirvani" imzası ilə çap olunub".

Eləcə də, dönəmin Türkiyə mətbuatını yetərincə araşdıran M.Gəncəli Hadinin Türkiyə mətbuatında çap olunan yazılarının da statistikasını təqdim edir.

## *Hadi və Osmanlı*

Təəssüf ki, Hadinin məqalələri və siyasi görüşləri kifayət qədər araşdırılmayıb. Sovet dönəmində onun Türkiyə və Cümhuriyyətlə bağlı görüşlərinin üzərindən keçilib. Mehdi

İsmayılovun kitabının önəmli bölümü də Hadinin siyasi görüşlərinə həsr edilib.

Osmanlını yaxından izləyən Hadi hələ 1908-ci ildə yazdığı bir məqaləsində Osmanlı mətbuatını təqdir edir, bu mətbuat sayəsində İran, Hindistan, Çin, Qafqaz, Xəzər bölgələrinin də maariflənəcəyini qeyd edir.

Hadi Osmanlıda başlanan yenilikləri yaxından izləyərək həm şeirlərində, həm də yazılarında Osmanlını örnək olaraq göstərir. Bir şeirində Qacar şahının Osmanlıdan nümunə götürməli olduğunu yazır, bir məqaləsində isə İstanbulda qurulan qadın cəmiyyətini qadın haqları çərçivəsində müsbət şəkildə dəyərləndirir.

1910-cu ildə yazdığı şeirlərindən birini Hadi Osmanlı Məclisi-Məbusanına ithaf edir. Eləcə də şeirlərində Osmanlını bütün islam dünyasının ümidgahı kimi qələmə verir, Balkan savaşında Osmanlının vəziyyətini vaxtilə Vyananı mühasirə etdiyi dönəmlə müqayisə edir. Avropa dövlətlərinin fürsətdən istifadə edərək Osmanlıya qarşı təcavüz etməsini qınayan Hadi bu dönəmdə yazdığı şeir və yazılarında xanədanlığın gücünə inandığını göstərir: “Osmanlılar daima müstəqil olaraq yaşayıb və istiqlaliyyətlərini dünyayla bərabər yaşatmağa and içiblər”.

Hadinin 13 iyun 1918-ci ildə yazdığı, Yavuz Akpınar tərəfindən Əli bəy Hüseynzadənin arxivindən tapılan “Qəhrəman türk əsgərlərinə” adlı şeiri isə yenicə elan olunmuş Azərbaycan Cümhuriyyətində hər kəs kimi onun da türk ordusuna olan ehtiramından xəbər verir:

Türk oğluyuz, Osmanlıyız,
Namusluyuz, vicdanlıyız.
Tariximiz meydandadır;
Dünya bilir ki, sanlıyız.

Hadi İstanbula 1910-cu ildə getmişdi. Osmanlıdakı 1908-ci il inqilabı onda böyük ümidlər yaratmışdı. O, burada “Tanin”

qəzetində tərcüməçi işləyir, bir sıra qəzet və jurnallarla əməkdaşlıq edir. Lakin İstanbulda hadisələr gözlədiyi kimi getmir, sərt yazılarına görə 1913-cü ildə Salonikiyə sürgün edilir. Sürgünə digər səbəb kimi dönəmin hərb naziri Mahmud Şövkət Paşanın qətli olur. Belə ki, bu qətldə kənardan gələn aydınlar da şübhəli bilinir. Abdulla Şaiqin xatirələrindən aydın olur ki, Salonikidə qadınların yüklərini daşıyaraq çörək pulu qazanan Hadi ağır vəziyyətdə yaşayıb, türk agenti kimi həbs edilib.

Hadi 1914-cü ildə Bakıya qayıdıb. I Dünya müharibəsi başlayanda isə o, müsəlman ordusunun tərkibində Avropaya yollanıb. Cümhuriyyət dönəmində gənc dövlət, onun ordusu haqqında şeirlər yazan Hadi ömrünün axırlarında yenə çətin vəziyyətdə yaşayıb, iddialara, bəzi xatirələrə görə şeirlərini satıb, içkiyə qurşanıb. Ölümü isə hələ də müəmmalı olan Hadi geniş dəstək qazanmış fikrə görə 1920-ci ilin mayında Gəncə üsyanı zamanı yaralanaraq həlak olub.

*Məzarıstana çevrilən Türküstan və Şərq*

Hadinin yaradıcılığında türklərin ata yurdu olan Türküstanın durumu hüznlü şəkildə qeyd olunur. Bir şeirində yazır:

Məskəni-İslam olan bu mülk Türküstandır,
Ölkədir zənn eyləmə issız məzarıstandır.

"Türküstana bir nəzər" adlı yazısında isə Hadi vaxtilə Türküstanın İslam dünyasına bəxş etdiyi Uluq bəy, İbn-Sina, Nəvai, Fərabi, Ənvəri kimi şəxsiyyətlərin adını sadalayır, Buxaranın elm və maarif mərkəzi olduğunu yazır. İndi isə qəflət və xurafatın Türküstana hakim kəsilməsini təəssüflə qeyd edir: "Bu gün Paris, London, Berlin necə ki, maarif və sənaye mərkəzidir, keçmişdə Buxara da bu cür elm və maarif mərkəzi olub".

Hadi Türküstanın və ümumiyyətlə, İslam dünyasının bu vəziyyətə düşməsinin iki səbəbini qeyd edir. Birinci səbəb kimi zövq və əyləncəyə düşkün hökmdarları, ikinci səbəb kimi isə elm əbasına bürünmüş bir qrup cahilləri göstərir.

Hadiyə görə Türküstanın bu vəziyyətdə olması rus missionerlərin rahat fəaliyyət göstərməsinə səbəb olur:
"Rus missionerlərindən, Buxara tərəqqisinin ən böyük düşməni olan məşhur Ostroumov Daşkənd şəhərində bir qəzet çap edir... Bu qəzet missionerlərin fikirlərinin nəşridir, təqib etdiyi məslək isə əhalini cahil və qafil olaraq yaşatmaqdan ibarətdir".

### *Şərqlə Qərb arasında*

Hadi şeirlərində türk və islam dünyasının keçmişini tərənnüm etsə də, bu gün Qərb dünyasının öndə olmasının bir çox səbəblərini göstərir. Hələ 1908-ci ildə "Təzə Həyat" qəzetində Məhəmməd Səid Ordubadiyə yazdığı açıq məktubunda Qərbdə ziyalılara verilən dəstəklə bağlı maraqlı məlumatlar verir: "İngiltərənin məşhur riyaziyyatçılarından Nyutonun bir dişi bir ingilis əsilzadəsi tərəfindən 1816-cı ildə 730 ingilis lirəsinə alınıb, qızıl bir halqaya keçirilərək üzük kimi istifadə edilib. Fransa ədiblərindən Viktor Hüqonun "Səfillər" adlı məşhur əsərini yazdığı qələm bir ingilis tərəfindən 45 min franka alınıb. Volterin əsası 500 franka satılıb. Russonun geyindiyi bir köynək 950 franka, bir çuğun saatı 1500 franka satılıb. Fransa şairlərindən Molyerin bir dəllək dükanında oturduğu stul şairin vəfatından sonra birinci dəfə 5 min franka satılıb".

Şərqdən fərqli olaraq Qərbdə ziyalıları dəyər verildiyini yazan Hadi Əli bəy Hüseynzadəyə ithaf etdiyi bir şeirində yazır:
"Vücudun ilə fəxr eylərdi, gər olsaydı qarbiyyun".

Hadi Qərb dünyasının inkişafının birdən-birə baş vermədiyini yazır: "Fransa kimi mədəniyyətin qucağında yaşayan, göz qamaşdıran bir həyata nail olanlar öz-özünə nail olmayıblar. Volterlərin, "İctimai Müqavilə"nin mühərriri

Russoların, Miraboların fəyyaz fikirləri, atəşli nitqləri, cəsur və kəskin qələmləri qara mürəkkəbləri doğurmuş və partlatmışdır”.

Hadiyə görə, İslam dünyasında hazırda işıq gələn hər yer pərdələnir:

Qövmi-İslam bir müəmmadır:
Tutmuş iştə əlində bir pərdə,
Harda varsa işıq, əl ol yerdə.

Hadinin şeirlərində və yazılarında qadın haqları xüsusi yer tutur, şəriətin qadına qarşı tutduğu mövqe tənqid edilir. Hələ İslamın hökmünün geniş olduğu bir dövrdə yazdığı şeirlərində çadra altında gəzən qadınları qara buludlarla kölgələnmiş günəşə və aya bənzədir.

Qərbdə qadınların cəmiyyətdə özlərinə mövqe seçmələrinin bir səbəbi kimi Hadi onların azad olmasında görür. 1914-cü ildə yazdığı bir şeirində açıq şəkildə yazır:

Mülk-i İslama bax: qaranlıqdır.
Qərbə bax, gör ki, hökmranlıqdır.
Səbəbi: Çün qadın o yerdə açıq!
Ey bürünmüş günəş, bu yerdə də çıx!

Bir şeirində isə Hadi “çarşaf” sözünün lüğətdən çıxarılmasını da tələb edir.

Beləliklə, Mehdi Gəncəlinin kitabını oxuduqdan sonra adilər içində Hadi olan əzabkeş şairimizin bizə bəlli olmayan şeir və məqalələrinin kitab şəklində çap olunmasının necə vacib olduğunu başa düşmək olur. Görünür, bu iş elə müəllifin öz üzərinə düşəcəkdir.

Çünki dili anlaşılmaz şair olaraq bizə tanıdılan Hadinin necə parlaq fikirlərə sahib mütəfəkkir olması haqqında demək olar ki, xəbərsizik.

Məhəmməd Hadinin yubileyi ilə əlaqədar kitabxanalarda müxtəlif tədbirlər keçirilə bilər. Belə ki, bunlardan *"Haqqın səsi batan deyil"* adlı **şeir müsabiqəsi** də oxucular tərəfindən sevilən tədbirlərdəndir. Kitabxanaçı ilk olaraq şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq şairin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından söhbət açır. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır. Kitabxanaçı səhnəyə yaxınlaşaraq qonaqları salamlayır və şair haqqında qısa məlumat verir:

*Kitabxanaçı:* Yəqin ki, ulu təbiətin insanlara bəxş etdiyi qismətlərdən ən mühümü təskinlik duyğusudur. Bu duyğu olmasaydı, insan ən dar, ən çətin məqamda nə iləsə təskinlik tapmasaydı, yəqin ki, hasqsızlıqlara dözə bilməzdi, bağrı çatlayardı. Böyük şairin də bu hisslər, duyğular təsəllisi olmuşdur.

M.Hadi zülm və əsarətə xidmət edən, dini mövhumat və xurafat yayan ruhaniləri cəmiyyət üçün son dərəcə zərərli adam hesab edirdi. O, cəsarətlə göstərirdi ki, avamların, möminlərin "ruhani ata" sayıb ətəyindən öpdükləri din xadimləri əslində ədəb və mərifətdən, elm və fəzilətdən büsbütün uzaq olan muzur adamlardır. Bunlar xalqın həm maddi, həm də mənəvi düşmənidirlər. Əsr tərəqqi, mədəniyyət əsri olduğu halda, onlar xalqı cəhalət və geriliyə sürükləyir. Hadi ruhaniləri çox tutarlı dəlillərlə ifşa edərək yazır ki, onların sözündə bilmərrə məntiq yoxdur. Bir sözlə, Hadi millətin varlığını bürqüyən gerilik və cəhaləti görərək fəryad edir, "Kimdən kimə şikayət edim" deyərək xəyal pərisinə müraciət edib biçarə insanların mübtəla olduqları bu dərdin dərmanını kənardan deyil, öz içərilərindən arayıb axtamağı, ona doğru-düzgün istiqamət verməyi tövsiyə edir.

Səfalət bizdə, zillət bizdə, hər dürlü bəla bizdə,
Maarif yox, sənaye yox, ticarət yox, zirayət yox.
Niyə biz qılmırız təqdir qədrin elmi-əbdanın,
Kor olmuş yoxsa Hadi, dideyi-qiymətnüma bizdə?!

M.Hadinin düşüncəsi, varlığı, yaradıcılığı həyatla, vətən övladının, gənclərin taleyi ilə bağlıdır. Onun ülvi məhəbbəti, xəyal pərisi, səmanın ənginliklərinə uçsa da, yenə də xalqın dərdlərindən uzaq qaça bilməyib yerə enir. Elə bir mövzu yoxdur ki, şair ona müraciət edərkən vətəni və vətən övladını dilə gətirməsin. Vətən-Hadi poeziyası üçün ilham mənbəyidir. Şairin arzu və istəkərini, xəyal və düşüncələrini, bir sözlə, amalını büruzə verən "Amali-Tərəqqi" adlı şeiri bu cəhətdən daha səciyyəvidir:

Həqiqi arzumuz intizam hali-millətdir,
Məcaimiz bütün məsrufi istikmali-millətdir.
Ürəkdə bəslənən amalımız iqbali-millətdir,
Yeganə nöktei-mətlub istiqlali-millətdir.

Hadi şəxsiyyət azadlığı, fikir və vicdan azadlığının tərənnümçüsü idi. O, vicdan azadlığını gur səslə tərənnüm edir. Daxili bir qüvvə şairi nitqə gətirir. Dünya durduqca nur saçan qəlbini qüdrəti ilə millətə, vətən övladına nəğmələr qoşub feyz vermək məqsədi ilə möcüzələr yaratmaq istəyir. Bitməz, tükənməz bulaq suyu qədər saf axan fikri, xəyalı gözü-könlü tox olan şairi ilhama gətirir.

Hadi özünü bahar fəslində bülbül kimi cəh-cəh vuran, fəğan edən, min bir çiçəkdən ilham alan quşa bənzədir. "Dünya bağı mənim gülüstanımdır" deyir.

Vətənpərvər şairimiz Hadi bütün həyatı boyu millətini ən ali mərtəbələrdə görmək atəşində yaşamış, bu arzuya çatmaq üçün dönmədən mübarizə aparmışdır. Çünki əcdadı ulu, qanı saf, tarixi qədim və şöhrətli bir xalqın övladı olduğunu bilir və soydaşlarını ayıltmaq üçün bu həqiqəti onlara dönə-dönə söyləyərək təlqin etməyə çalışırdı. Yer üzünü millətlərin yarış

və vuruş meydanı hesab edən Hadi inanırdı ki, bu çarpışmalarda türk xalqları qalib çıxacaq.

Ən işıq bir ömür istərsək günəş altında biz,
Durmalı iddiayə qarşı qeyrəti-rəşxən ilə.

Hadinin tarix etibarı ilə bizə məlum olan son əsəri "Kor soqqur" şeiridir.

"Hərarətli şeir, yaxud, qızdırmalı halımda saçmalarım" adlı məhşur əsərində, şairin mövcud quruluşa və ümumiyyətlə, istismar dünyasına qarşı son üsyan səsi ucalmışdır.
1919-cu ilin ortalarında şair, "siyasi xadim" qoymuş "tülkülərlə" barışmazlıq əlaməti olaraq, Bakıdan uzaqlaşıb ömrünün axırına qədər buraya qayıtmamışdır.

Şairin nədən, harada və nə vaxt öldüyünü dəlilli-sübutlu aydınlaşdıran olmadığından, bu məsələlər Hadi haqqında yazılarda tam "əfsanəvi" həlledilməz bir "müşkül şəkil almışdır. Bəzi müəlliflər şairin 1919-cu ildə, bəziləri isə 1920-ci ilin əvvəllərində "qeyb olduğunu" iddia edeirlər. Xatirələrdən və şairin sağ qalmış müasirlərinin sözlərindən belə bir rəyə gəlmək olur ki, Hadi 1920-ci ilin may ayında vəfat etmişdir.
Beləlilkə, bütün həyatını, həyacanlı, narahat ürəyini, alovlu ilhamını, ziddiyyətlə dolu, fəlsəfi məzmunlu əsərlərini vətən, xalq, azadlıq, səadət, tərəqqqi yolunda ədəbi mübarizəyə həsr edən şair zülm, istismar, dünyasının qurbanı olmuş, ədalətsiz dövran onu yaşada bilməmiş, yaşatmamışdır.

Payimali-düşmən olsunmu çəmənzari-vətən?!

Hürriyyətpərvərlik ideyası Məhəmməd Hadi yaradıcılığında ən mühüm yerlərdən birini tutur. Əsərlərində burjua kapitalist mühitini şiddətli damğalayan Hadi məhz azadlıq deyə var səsilə hayqırırdı. "Hürriyyət" sözü şairin dilinin əzbəridir. Günəş düşüncəli, geniş ürəkli, açıq sözlü şair riyakarlara üz tutub: "Rəhbər olamaz gözlülərə gözsüz olanlar" deməklə onlara cavab vermişdir. "Əsarət zülmünün gərdunəsin çəkmək de" fikrini irəli sürən ədib "məzaristani-qəflətdən atıl meydanə, göstər can" əzmiylə zülm və istibdad əleyhinə var səsi ilə

hayqırmışdır. Və göstərmişdir ki, xalqın istiqlaliyyət uğrunda həlak olan şəhidləri, inqilab ərlərini xalq heç vaxt unutmayacaqdır.

Məhəmməd Hadinin əkdiyi toxumlar çoxdan cücərmiş, bəhrələr vermişdir. Bu toxumlar həqiqət dənələridir. Azərbaycan şeirinə romantizm gətirən və onu qanadlandıran, ona can, həyacan verən sənətkar necə unudula bilər? Dünyaya yeni nəsillər gəldikcə, şeirimizin çeşidli çalarları araşdırıldıqca, Sabirdən, Caviddən, Səhhətdən, Şaiqdən danışıldıqca Hadi də öz mübarək çöhrəsiylə gözlərimizin önündə canlanacaqdır. Poeziyamızın sənətkarlıq sirləri açıldıqca, əruzun şölələri könüllərdə saçıldıqca, bu gözəl vəznin gözəl əsərlərində yaşadan mahir sənətkarın adı hörmətlə çəkiləcək, könüllər eşqiylə güləcəkdir. “Unutma bizləri, yad et!” deyən dodaqlardan qopan mehriban sədalardan müəllifi heç vaxt unutmayacaq!

*Kitabxanaçının dəyərli məlumatlarından sonra ilk olaraq birinci iştirakçı “Cəhalətimdən şikayət” adlı şeiri qiraətli bir şəkildə deməyə başlayır.*

…Oxumaqçün nə qədər dadü fəğan etdimsə,
Olmadı zerrə əsərbəxş şu istimdadım.
Dağa dersən eşidir, sonra verir əksi-seda,
Daşa dönmüşlərə əks eyləmədi fəryadım.
Olmadan naili-didari-eməl qəbrə girər —
Eşqi-şirini-ülum ilə yazıq Fərhadım!
Acizəm tərcümeyi-halımı təhrirə, səbeb?
Doludur təlx həqaiqlə dili-naşadım.
Ey Hadiyi-qəmdidə! de şu bülbüli-zarə:
Cəh-cəh deyib axır düşər ağuşu-məzarə.

*İkinci iştirakçı “Mən bir kitabəm” adlı şeiri qiraətli bir şəkildə deməyə başlayır.*

Mən bir kitab, hər vərəqim min kitabdır,
Ayati-məhkəmati bütün inqilabdır.
Qılsın mütaliə məni əıbabi-inqilab,
Görsün bu ayələrlə nasıl feyziyabdır!
Sönmüş həvasə şölə verir nuri-fikrətim,
Ruhum füyuzpərvər olan afıtabdır.
Olmuş vətən qünudə ləyali-cəhalətə,
Zülmatə qarşı mərifətim mahtabdır.
Hürriyyət ilə etməli məmur milləti,
Yanm, əsarət ile vətən pək xərabdır.
Tiği-məzalim ilə əvalim cərihədar,
Ey ədl, sürət eylə, zəmani-şitabdır!
Əshabi-zülm ziynətidir təxti-rahətin,
Məzlumlar dilim kimi püriztirabdır.
Bax, bax, şu hurə, qoynuna girmiş səfalərin!
Dildadeyi-cəmalı düçari-əzabdır.
Ağuşuma atılma, a zalim, dayan, dayan!
Son xabigahın iştə kənari-türabdır.
Aldanma rəngü buyinə gülbərgi-hüsnünün,
Beş gün sürər də, sonrası bibuyi-tabdır.
Çox süzdü gözlərim bu riyazi-təbiəti,
Hər qönçənin təravəti mürrəssəhabdır.
Gəl müstəfid olaq, mələkim, gəl, həyatdan,
Hər dəmdə istifadə edən kamiyabdır.
Şeyxüxətin şitasi gəlir, qafıl olma kim,
Fürsət zəmani iştə bəhari-şəbabdır!
Yoxsa başında kövsərü huri həvası var?
Olsun nəticəbəxş, nə ləzzətli xabdır?
Tihi-xəyal içində şitaban olan səfil!
Yortma! O parlayan su deyildir, sərabdır.
Sun badeyi-məhəbbəti hürriyyət eşqinə.
İnsanə intibah verən bu şərabdır.
Çıx, çıx məzardan, ərəsati-həyatə gəl!

“İqrə kitabəkə”... bu ki yövmil-hesabdır.
Zülmətpəsəndlər giriyorlar cəhənnəmə,
Rövşəndilani-elm behiştiməabdır.
Əsfəllərə tənəzzülü şayistə görməyən —
İnsanə afərin, necə alicənabdır!
Elm əhlidir cahanda səzavari-iltifat,
Cahil həmişə məzhəri-qəhrü itabdır.
Cahil sənə edərsə cəhulanə bir xitab,
Mənalı bir sükut ona əla cavabdır!
Şeytani-cəhli yaxmağa əflaki-elmdən —
Bu xaki-tirənakə yağanlar şəhabdır.
İnsanlar birər ediyor əsr imtahan,
Bu dövrü-irtiqa, məhəki-intixabdır.
Çıxdı niqabdan o həqiqət çiçəkləri,
Millət xəyalət ilə hələ dərhicabdır.

*Üçüncü iştirakçı da “Məktəb nə demək”demək üçün səhnəyə yaxınlaşır.*

Məktəb nə demək? Xadimi-qüdsiyyəti-millət.
Məktəb nə demək? Baisi-ülviyyətü şövkət.
Məktəb nə demək? Cilvəgahi-nuri-həqiqət.
Məktəb nə demək? Rəhbəri-irşadü səadət.
Övladi-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali!

Məktəb nə demək? Heyəti-milliyəyə candır.
Məktəb nə demək ruhi-didi mürdədilandır.
Ariflərə həmvarə bu söz virdi-zəbandır:
Əlməktəbü, əlməktəbü, ey millət, amandır,
Övladi-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali!

Məktəb nə demək? Əncüməni-əhli-səfadır.
Məktəb nə demək? Bariqeyi fəkri səmadır,

Neyyirləri həp şəşəəbəxşeyi-dühadir,
Pərvərdeyi-ağuşi olanlar üdəbadır.
Övladi-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali!

Məktəblə bulur təsfiyə ayineyi-vicdan,
Məktəblə edər kəsbi-şəraf zadeyi-insan,
Məktəblə görər tərbiyə həp gülşani-ürfan,
Təzkar edək ixvanımıza şu sözü hər an:
Övladi-vətən etmək üçün bizdə təali
Məktəblər açıb kəsb edəlim elmü kəmali!

*Növbəti iştirakçı da "Türkün nəğməsi"adlı şeirini qiraətli bir şəkildə deməyə başlayır.*

Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?

Dörd ildə verilmiş bu qədər can hədər olmaz,
Məfkurə yolunda tökülən qan hədər olmaz,
Qiymətli olan xuni-şəhidan hədər olmaz,
Dul qalmış olan növheyi-nisvan hədər olmaz,
Bax səs sonuna, hikməti-türkan hədər olmaz,
Bədbəxt olan əğfani-yetiman hədər olmaz.

Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?

Qan ilə qazandıq zəfəri, verməriz əldən,
Xof eyləmədik atəşi-dəhhaşe düvəldən
Bir zərrə belə qorxmayırız dəsti-əcəldən,
İstərsə cahan çevrili varsın da təməldən.
Türkün üzü çevrilməyəcək səmti-əməldən,
Türklər geriyə dönməyəcək müslih əməldən.
Yüksək yaşamaq istər ikən cümlə miləldən.

Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?

*Tədbirin sonunda münsiflər heyəti qiraəti ilə fərqlənən iştirakçıları mükafatlandırır.*

Kitabxanada oxucular tərəfindən sevilən və rəğbətlə qarşılanan tədbirlərdən biri də *"Azərbaycan poeziyasının istiqlal carçıları"* adlı **"xatirə gecəsi"**dir. Bunun üçün kitabxanaçı kitabxanaya yaxın olan məktəbə gəlir və məktəbliləri tədbir haqqında məlumatlandırır. Tədbir zamanı kitabxanaçı ilk olaraq tədbirə yığışan məktəb kollektivini salamlayır və istiqalal şairi Məhəmməd Hadinin həyat və yaradıcılığından qısa söhbət açdıqdan sonra Əhməd Cavadın müəllimlik ömründən danışır. Tədbirə şairlər, jurnalistlər, ədəbiyyatçı və tədqiqatçılar da dəvət oluna bilər.

## Ədəbiyyat siyahısı


### Əsərləri

### Kitablar

Seçilmiş əsərləri : poeziya. - Bakı : Şərq-Qərb, 2005. - 464 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Acı həqiqətlər : poeziya. - Bakı : Adiloğlu, 2006. - 296 s.

### Kitablarda

Dilək ölməz ; Məktəb : şeir // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. - Bakı : Öndər, 2004. - C. 2. - S. 42-44.

Nəğmeyi-əhraranə ; Məktəb ; Amali-tərəqqi və başqa şeirlər // XX əsr Azərbaycan şeiri antologiyası : (1905-1920-ci illər). - Bakı : Şərq-Qərb, 2005. – S.271-338. - (Ədəbiyyat antologiyaları).

Türkün nəğməsi ; Zəfəri-nəayiyə doğru ; Məmayi-kainat və s. : şeirlər // Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. - Bakı : Elm, 2003. - S. 105-131. - Həyati-hazirəmizin ilhamları ; Mehtabi şətta ; Qürbət yellərdə yadi-vətən və s.

Türkün nəğməsi ; Şühədayi-hürriyyətimizin ərvahına ithaf ; Zəfəri-nəhayəyə doğru : şeirlər // Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. - Bakı : Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu, 2008. - S. 545-546.

### Dövri mətbuatda

Əsgərlərimizə, könüllülərimizə : şeir // Mədəniyyət. - 2018. - № İyul-Xüsusi buraxılış(Cümhuriyyət -100 il). - S. 45 ; Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 3.

İzhari-qədrdani : şeir // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 32.

Məfkurəyi-aliyəmiz : Azərbaycan dövləti-növzadına // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 1.

Türklərin yeganə filosofu Rza Tofiq həzrətlərinə : şeir // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 32.

**Elektron resurslar**

**Füyuzat** [Elektron resurs] / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ; məsl. L. Məmmədova [et al.]. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : fot. ; 12 sm. - (Nizami layihəsi). - (qutuda). – Jurnalda Məhəmməd Hadinin də yazıları əks olunub.

**Haqqında**

**Kitablar**

**Osmanlı V.** Məhəmməd Hadinin romantizmi. - Bakı : Elm, 2006. - 204 s.

**Kitablarda**

**Əhmədov B.** Füyuzat və füyuzatçılar // XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə : dərslik. - Bakı : Elm və təhsil, 2011. - C.1. - S. 47-55.

**Əhmədov B.** Məhəmməd Hadi // XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə : dərslik. - Bakı : Elm və təhsil, 2011. - C.1. - S. 180-196.

**Əlioğlu M.** Faciəli istedad : Məhəmməd Hadi haqqında // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C. 1. - S. 155-169.

**Nəbiyev B**. Məhəmməd Hadi Əbdülsəlimzadə Şirvani (1879-1920) // Şamaxı torpağının yetirdiyi böyük Azərbaycan şairləri : Elmi-kütləvi oçerklər. - Bakı : Ozan, 2012. – S.227-279.

**Sadıq F.** Ümmanda damla : Məhəmməd Hadi haqqında // Taleyin acığına. – Bakı : : Çinar-Çap, 2003. - S. 240-243.

**Dövri mətbuatda**

**Abdulla K.** Hadiyə məhəbbətlə... : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 9.

**Adilov V.** Məktəb və maarif yolunda Məhəmməd Hadi izləri // Füyuzat. - 2016. - № 3. - S. 34-37.

**Akimova E.** Cümhuriyyətə gedən yolun şairi - Məhəmməd Hadi // Ədəbiyyat qəzeti. - 2018. - 26 may. - № 20. **- S**. 4-5.

**Akimova E.** İmzalar içində Hadi : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 19.

**Anar.** Hadinin sonacan yaşaya bilmədiyi sevinc // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 4.

**Anar.** İki şairin acı taleyi : Məhəmməd Hadi (1879-1920) və Əhməd Cavad (1892-1937) // Ədəbiyyat qəzeti. - 2016. - 24 dekabr. - № 51/52. - S. 4-5.

**Babasoy Ü.** Antropoloji şeir təhlili, yaxud bizim Hadinin iztirabı // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 29.

**Bayatlı V. (Odər).** Donurdu Hadinin əlləri : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 7.

**Bayramoğlu A.** M. Hadi "Azərbaycan" qəzeti səhifələrində : "Azərbaycan" - 100 İstiqlalımızın yadigarı, həmyaşıdı və tərənnümçüsü // Azərbaycan. - 2018. - 3 oktyabr. - № 221. - S. 7.

**Cəfərov N.** Hadinin hürriyyəti : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 11.

**Dünyaminqızı Q.** Ən yüksək şəkildə anılmağa layiq şair : və ya təkcə yaradıcılığında deyil, həyatında da romantik olan Hadi // Kaspi. - 2020. - 3 iyun. - № 83. - S. 15.

**Dünyaminqızı Q.** Vətənin hürriyyət şairi : o elə yandı ki, külü də qalmadı // Kaspi. - 2020. - 21 aprel. - № 59. - S. 15.

**Elçin.** Ağrıyan şair : Məhəmməd Hadi mənimçün kimdir? // 525-ci qəzet. - 2019. - 4 dekabr. - № 159. - S. 15.

**Elçin.** Ağrıyan şair : Məhəmməd Hadi mənimçün kimdir? // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 5.

**Əliyev X.** Millətin dərdindən dərdə düşmüş böyük şairin son "mənzillərinə" (!) aparan yollar : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 24.

**Eyvazlı G.** Qəmabad sakini - Məhəmməd Hadi : esse // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 22.

**Eyvazlı G.** Parla, parlat... : Məhəmməd Hadi 140 // Kaspi. - 2019. - 14-16 dekabr. - № *232. - S. 18-19.

**Əzizli B.** Hürriyyətə və ülviyyətə vurğun ömür : Məhəmməd Hadi - 140 // Azərbaycan. - 2020. - 21 iyun. - № 118. - S. 5.

**Fəhmi İ.** Hadinin dil(sizliy)i // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 21.

**Fikrətoğlu O.** Hadinin çiyninə qonmuş mələk : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 20.

**Gəncəli M.** Ustad ilə mənəvi şagirdi : (Əli bəy Hüseynzadə və Məhəmməd Hadi) // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 31.

**Hacı Kənan.** Şairin məğlubiyyəti : Sabir Rüstəmxanlının "Şair və şər" romanı haqqında qeydlər // Ədəbiyyat qəzeti. - 2016. - 9 yanvar. - № 1. - S. 28.

**Həbibbəyli İ.** Bənzərsiz sənətkarlıq nümunəsi : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 8-9.

**Həsənzadə N.** İstiqlal şairi : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 11.

**Həşimli H.** Məhəmməd Hadi yaradıcılığında mənsur şeir örnəkləri // 525-ci qəzet. - 2019. - 13 dekabr. - № 163. - S. 14.

**Hüseynoğlu S.** Qeybdə bir tənha vardı... // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 25.

**Hüseynov R.** Onu hamı ilə danışdırmaq arzusu : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 10.

İlk istiqlal dövrümüzün ədəbi salnaməsi // Mədəniyyət. - 2018. - № İyul-Xüsusi buraxılış(Cümhuriyyət -100 il). - S. 44.

**Qaraxanlı E. (Zal).** İdrakı olanlar məni sonra qanacaqdır : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 13.

**Qəribl İ.** Ömər Xəyyamın rübailəri M.Hadinin tərcüməsində : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 28.

**Qəribli İ.** Türkün üzü çevrilməyəcək səmti-əməldən... : Məhəmməd Hadi yaradıcılığının Cümhuriyyət dövrü // Ədəbiyyat qəzeti. - 2018. - 1 dekabr. - № 45. - S. 16-17.

**Qurbansoy F.** Bəla girdabında cizginən şair : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 22.

**Mehdi N.** Hadinin bir deyiminə fəlsəfi açım // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 24.

**Məhəmməd Hadinin 140** illiyi qeyd olunacaq // Palitra. - 2019. - 6 dekabr. - № 150. - S. 3.

**Osmanoğlu M.** Unutma, bizləri yad et!. : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 27.

**Ömərov V.** Məhəmməd Hadi, Abdulla Şaiq, Zərdabi və qadın hüquqları // Səs. - 2018. - 18 oktyabr. - № 197. - S. 15.

**Rövşən R.** Kədərli sual : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 6.

**Rövşən R.** Tanrı casusu : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 6-7.

**Sadıq F.** Məhəmməd Hadi : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 20.

**Sarıtorpaq Z.** Gör yaşamaq asandırmı?. : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 30.

**Tahirli A.** Məhəmməd Hadi poeziyası - istiqlalın ədəbi və əbədi məşəli : mühacir tədqiqatçılar hürriyət və həqiqət şairi haqqında // Xalq qəzeti. - 2020. - 1 mart. - № 47. - S. 6.

**"Tarixi şəxsiyyətlərdən roman** yazanda uydurmalara yol vermək olmaz" : "Sənət hücrəsi"nin budəfəki qonağı Xalq şairi Sabir Rüstəmxanlıdır / söhbətləşdi K. Hacı // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 12-13.

**Telmanoğlu X.** Şeir necə mədəniyyət yaradır : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 15.

**Turalı Qan.** Qırx bir : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 9.

**Turan A.** Heykəl diləməm, heykəli-qəbrimdir o əflak // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 16-18.

**Vahabzadə İ.** Təsdiq və inkar : artur Şopenhaurlə Məhəmməd Hadiyə müqayisəli baxış // 525-ci qəzet. - 2019. - 25 dekabr. - № 168. - S. 18.

**Vahid M.** Məhəmməd Hadinin irsi çağdaş ədəbiyyatşünaslıq müstəvisində // 525-ci qəzet. - 2019. - 4 may. - № 71. - S. 19.

**Vahid M.** Şairin estetik idealı : Məhəmməd Hadinin "Aləmi-Müsavatdan Məktublar" poeması əsasında // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 14-15.

**Yaqub M.** Məhəmməd Hadinin şeir bazarı // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 23.

**Yusifli C.** Məhəmməd Hadi: Əfsanələrin sirr pərdəsi, yaxud dəniz kimi köpürəm... : Məhəmməd Hadi - 140 // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 26.

***Şairə həsr olunmuş əsərlər***

**Baxış E.** Bir şairi öldürürlər : Məhəmməd Hadiyə : şeir // Ədəbiyyat qəzeti. - 2019. - 30 noyabr. - № 43/44. - S. 30.

**Baxış E.** Gecənin bir aləmi ; Məhəmməd Hadiyə : şeir // Ədəbiyyat qəzeti. - 2017. - 24 iyun. - № 23. - S. 31.

**Bayram T.** Bir səhnə : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 159.

# Nə qəmlidir, nə ələmli həyatın, ey şair!

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 29
Çapa imzalanmışdır: 19.08.2020
Tirajı:100
Pulsuz